*Nizamişünaslıq 12, №1, 2025, səh. 90-94*

https://doi.org/10.59849/3006-2403.2025.1.90

***Afaq YUSİFLİ***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***Gəncə Dövlət Universiteti***
***Azərbaycan və dünya ədəbiyyatı kafedrası***
***E-mail: yusifli.afaq@mail.ru***

# NİZAMİ GƏNCƏVİNİN "LEYLİ VƏ MƏCNUN" POEMASINDA DİNİ DƏYƏRLƏRİN ƏKSİ

*Açar sözlər:* tövhid, minacat, təhkiyə, yenilik, metafora

## Giriş

Azərbaycan ədəbiyyatında beş kamil poemanın müəllifi olan Nizami Gəncəvi yazdığı bütün poemalarında dərin fəlsəfi məzmunla yanaşı, mükəmməl quruluşda epik əsər yaratmağa nail olmuşdur. Şairin əksər poemaları "Bismillah ər-Rəhman ər-Rəhim" ifadəsi ilə başlayır. "Sirlər xəzinəsi"nin ilk sətirləri belədir:

Bismillah ər-rəhman ər-rəhim
Oldu xəzinə açarın ya həkim.

Haqq adı fikrin önü, həm söz sonu,
Qurtar adıyla sözü, yad et onu.
[3,s.15]

Nizami Gəncəvinin bütün poemaları belə bir girişlə başlayır və həmin parçalar adlandırılmır. Poema yalnız bu girişdən sonra gələn fəsillərlə: Tövhid, Minacat, Nət, Peyğəmbərin meracı, hökmdarın tərifi, nəzmin yazılma səbəbi ilə davam edir və sonra məqalət və hekayətlərə keçilir. Poemanın məhz bu xüsusiyyətinə istinad edərək M. Ə. Rəsulzadə yazırdı: "Bu kitab "Beşlik"in ötəki 4 kitabı kimi, şəkil baxımından bir bütünlük göstərməz, fəqət, bu, onun mənaca da bir bütünlükdən uzaq olduğunu ifadə etməz, əksinə "Məxzənül-əsrar"ın yazılışındakı əsil məqsəd şairdən ziyadə həkim və şeyx Nizaminin əxlaqçı fikirlərini içdən bir bağlılıqla oxuculara təlqin etməkdir. Bu nöqtədəndir ki, ona bir kitab deyə bilirik: din yayan müqəddəs bir kitab."

"Məxzənül-əsrar" təlqinçi bir əsərdir. Burada şair nəzm dili ilə suficə fikir, əqidə, əxlaq və dünyagörüşünü başqalarına təlqin və təlim etməkdədir. O, ilahi hikmətlərin sirrinə ermiş və bunları bir "xəzinə" halında "ərənlərə" əmanət etmişdir [7, s. 74].

## "Xəmsə"də minacat və nətlər

Nizami Gəncəvinin 6 qəsidəsindən ən maraqlısı olan "Kəbə sultanı" qəsidəsində Kəbəni görmək arzusunu və Məhəmməd peyğəmbərə olan ehtiramını belə ifadə edib:

Odur Kəbə sultanı yeddi ölkə təxtində,
Qara çətir başında, yaşıl diba əynində.
Dördkünc, uca təxtində Xosrovlar tək əyləşib,
Həlqəsinin pərgarı göylər dairəsində.
Ərəb əndamlı türkdür, hərgün min könül ovlar,
Ənbərdən qara xal var nurlu, ağ çöhrəsində.
Ulu Tanrım, macal ver Nizamiyə, ölməmiş,
Ürəyim dağa dönsün onun siyarətində.
[2. s.141-142]

Ərəb əndamlı türk və ya ərəb geyimli türk ifadələrini Nizami bir də "Leyli və Məcnun" poemasında işlədir. Nizami Gəncəvi üçün ağlıq, mərdlik, inam və sədaqət türklərə məxsus ali keyfiyyətlər olduğundan şair nəyisə tərifləmək istədiyi məqamlarda bu üsula əl atır.

"Sirlər xəzinəsi" və "Leyli və Məcnun" poemalarında şair tövhidlə yanaşı minacatlar, peyğəmbərin meracı və nət fəsillərini böyük məhəbbət və eyni zamanda dini məfhumları izah və təbliğ etmək, onları poemaların ideyası ilə əlaqələndirmək mövqeyindən çıxış etmişdir. "Sirlər xəzinəsi"ndə "Tövhid və minacat", "Minacat", "Peyğəmbərlərin sonuncusunun nəti", "Peyğəmbərin meracı haqqında" və bundan sonra daha dörd nət verilmişdir. Peyğəmbəri "haqq nurunun kölgəsi" adlandıran şair üçün ondan daha ülvi varlıq yoxdur. Maddi və mənəvi aləmin sultanı hesab etdiyi peyğəmbərə müraciəti də bir fəryad kimi səslənir: "Ey iki aləm, niyə yatdın yerə?" [3, s. 44]

Nuh, Adəm, İbrahim, Xızr, Yusif, Musa, Əli, Öməri xatırlayan, lakin onların peyğəmbərə tay olmadığını deyən şair fikrini belə yekunlaşdırır:

Torpağını can bağı bildim hər an,
Gülşənin olmuş mənə can, həm cahan.
[3,s.51]

"Leyli və Məcnun" poemasında giriş, "Minacat", "Peyğəmbərlərin sonuncusunun nəti" və "Allahın Rəsulunun meracı" fəsillərində əsas irəli sürülən fikir insanın bu dünyadakı yeri, vəzifəsi, qazana biləcəkləri haqqında suallarla yekunlaşır:

Nəymiş adımız, kimik,de, göstər,
Biz büt qıranıqmı, yoxsa bütgər?
Hər bir işini düzəltmisən sən,
Güc tapdı Nizami qəlbi səndən.[4, s. 30]

**Mən həzrəti Məhəmmədin ayağının torpağıyam**

Məhəmməd peyğəmbərin obrazının irihəcmli epik-lirik əsərə gətirilməsi ənənəsi də, demək olar ki, Nizami yaradıcılığı ilə başlayır. Təbiidir ki, söhbət yalnız nət-qəsidədən getmir. Obrazın metaforik əksi baxımından bu işdə mütləq birincilik Nizamiyə məxsusdur.

Dərd əlindən dağa çıxmaq, dərdini dağa söyləmək epitetləri peyğəmbərlərə məxsus bir epitet kimi qavranıldığından, Məhəmməd peyğəmbərin birbaşa deyil, dolayı yolla təsviri Nizaminin "Leyli və Məcnun"undan başlayan bir yoldur:

Nəcd adlı o yerdə dağ ki, vardı,
Leyli və qəbiləsi yaşardı.
Eşq atəşinə yanan o nakam
O dağda olurdu ancaq aram. [4, səh. 86]

Nə qədər cəsarətli görünsə də, bu epizod Məhəmməd Peyğəmbəri metaforik şəkildə xatırlamadır. Bütün peyğəmbərlər üçün söylənən bir fikir var: "Heç kim öz vətənində peyğəmbər ola bilməz." Nizami Məcnunu da öz vətənində, öz tayfasında, öz həmcinslərinin arasında qiymətləndirilmir, öldükdən sonra "qəbul edilir". Vəhy almış peyğəmbərlərin, xüsusilə də Məhəmməd Peyğəmbərin Yaradanla təması dağda reallaşmışdır. Nizami qəhrəmanı Məcnun üçün sakitləşmənin mümkünlüyünü yalnız dağla bağlayır. Bu, təsadüfi bir epizod deyil, ən mükəmməl nət və meracnamələrin yaradıcısı olan Nizami Gəncəvi üçün peyğəmbərlik də əslində məcnunluqdur. Bu haqda A. Əfəndiyevin maraqlı bir qeydi var: "Məcnunluq – Nizaminin zəmanə ilə döyüşüdür." [1, s. 135] Peyğəmbərlik – yaşadığın cəmiyyətin qanunlarına, ideallarına qarşı üsyandır, onu dəyişdirmək, irəliyə aparmaq cəhdidir. Təbiidir ki, hər kəsimi insan və cəmiyyət, qanun və fərd, ənənə və şəxsiyyət arasında münasibətləri aydınlatmağa xidmət edən Məcnun obrazı yalnız peyğəmbərliyin bəşər tarixindəki mövqeyini və xüsusiyyətlərini əks etdirmək üçündür demək də yanlışdır. Nizami

bu mövzuya sadəcə işarə edir: dağ aram tapmaq, sevdiyini xatırlamaq və sakitləşmək üçün bir məkandır. Peyğəmbər dağda aram tapdığı, suallarına cavab aldığı üçün, əslində, bütün zamanlar üçün metaforik bir obraz olan Məcnun da dağda sakitləşir, dağla söhbət edir və Səbanı, Günəşi vəsf edərək Yaradandan öz qəminə dəva istəyir. Bütün sonrakı “Leyli və Məcnun”larda Məcnunun yalvarışlarının, canlı və cansız varlıqlarla söhbətlərinin kökü Nizaminin “Leyli və Məcnun”undakı 15-ci fəsildə – “Məcnunun eşqinin səciyyəsi” hissəsindədir. Poema boyunca Məcnun gah öz halını izhar edir, gah şikayətlənir, bəzən məzəmmət yağdırır. Lakin sevgisi kimi qaranlıq bir gecədə əvvəlcə ulduzları vəsf edən, sonra Tanrı ilə dərdləşən Məcnun sanki burulğanda sovrulan bir qum dənəsi kimi öz labüd sonuna yaxınlaşır. Bundan sonra şikayət və məzəmmət yoxdur, Məcnun sanki öz gedişini hazırlayır, məktublar yazır, qəzəllər oxuyur, qəzəllərini, qissələrini, qəsidələrini Salam Bağdadiyə ərməğan edir ki, bunlar sonralar Bağdadda oxunacaq. “Gecənin vəsfi və Məcnunun Tanrı ilə dərdləşməsi” adlanan 44-cü fəsil [4, s. 206] sanki poemanın başlanğıcındakı minacatın yeni variantıdır və ya davamıdır. Çox maraqlıdır ki, başlanğıcdakı parçaların bütün poema boyu daha geniş və metaforik formada yenidən işlənməsi ilə rastlaşırıq. “Öz halının təsviri və ölən qohumlarının yad edilməsi” adlanan 12-ci fəsildə xatırlanan bütün qohumları sonradan Məcnunun ailəsi kimi yenidən xatırlanır. Məcnun atası və anası öləndə fəryad edir, ona həmdərd olan dayısı ilə söhbət edir, niyə orta əsrlərdə və ümumiyyətlə, bütün dövrlərdə qəbul edilmiş davranış normalarından – “normal geyim və yeməkdən” imtina etdiyini izah etməyə çalışır. Sonrakı “Leyli və Məcnun”larda da valideynləri üçün göz yaşı axıdan və öz halını izah etməyə çalışan Məcnunlar olacaq. Ancaq həmin Məcnunların dünya kədəri metaforanın yalnız bir hissəsi olacaq, əlaqə pozulacaq, orada əfsanə yarımçıq qalacaq. Yalnız ilkin metaforada – Nizaminin “Leyli və Məcnun”unda bağlılıq hiss ediləndir. Nizaminin “Leyli və Məcnun”undakı 12-ci fəsil suya atılmış daşın yaratdığı halqalar kimidir: hadisələr inkişaf etdikcə halqalar daha da böyüyür, hadisələr detal və təfərrüatlarla zənginləşə-zənginləşə başlanğıca qayıdır və hər şey əslində bir çərçivənin içində cərəyan edir. Bu çərçivə – Nizaminin öz duyğuları və yaşantılarıdır. Məcnun, əslində, bir çox real və əfsanəvi obrazların cizgilərini daşısa da, Nizaminin özüdür. Bütövlükdə poema Məcnun obrazına xidmət edir, onun əzabları və kədəri, sevgisi və izahatları aparıcıdır. Bütün digər obrazlar, hətta Leylinin özü də Məcnunun təqdimatına xidmət edir. Məcnun və məcnunluq haqqında nə qədər yazılsa da, “Məcnunun böyüklüyü haqqında” [4, s.261] ilk dəfə Nizami yazıb, ancaq qəribədir ki, misralar Məcnunu deyil, sanki Nizamini təqdim edir.

Söylərdi qızıl kimi o sözlər,
Beyti, qəzəli bir inci, gövhər.

ƏDƏBİYYAT

1. Əfəndiyev A. “İnam və şübhə”.Bakı – 1988.
2. Gəncəvi Nizami . Lirika. Bakü, 2004.
3. Gəncəvi Nizami “Sirlər xəzinəsi” Bakı, 2008.
4. Gəncəvi Nizami. “Leyli ve Məcnun” Bakı,2012.
5. Kabaklı Ahmet. Türk edebiyyatı. II cilt. İstanbul,1994.
6. Köprülü Mehmet Fuad. Türk edebiyyatı tarihi. İstanbul, 2014.
7. Resulzade M.E. Azerbaycan şairi Nizami. Bakü, 2011.
8. Səfərli Ə., Yusifli X. “Azərbaycan ədəbiyyatı tarixi” Bakı -2008.
9. Yusifli X. Şərqdə İntibah və Nizami Gəncəvi. Bakü, 2023.
10.Yusifli X. Orta əsrlər Azərbaycan şeirinde janrlar ve bədii ifadə vasitələri, Bakı, 2017.

***Афаг ЮСИФЛИ***
***Кандидат филологических наук, Доцент***

## ОТОБРАЖЕНИЕ РЕЛИГИОЗНЫХ ЦЕННОСТЕЙ В ПОЭМЕ «ЛЕЙЛИ И МЕДЖНУН» НИЗАМИ ГЯНДЖЕВИ

### *РЕЗЮМЕ*

*Ключевые слова:* таухид, мюнаджат, повествование, новшество, метафора

Низами Гянджеви, родившийся, получивший образование, творивший и похороненный в самом древнем городе Азербайджана Гяндже, был охарактеризован Мехметом Фуадом Кёпрюлю следующим образом: «...непревзойдённый поэт Низами из Гянджи своими маснави, собранными под названием "Пендж Гандж", превзошёл своих предшественников, внёс множество новшеств в этот жанр и полностью заставил забыть древних поэтов» [10, с.18]. В этом замечании М.Ф. Кёпрюлю имеет в виду совершенное вступление, состоящее из таухида, мюнаджата и наата, которое предшествует повествованию в поэмах Низами. Действительно, и до Низами в таких произведениях, как «Шахнаме» Фирдоуси и «Вис и Рамин» Гюргани, присутствовали разделы таухида и наата. Однако Низами внёс существенные новшества в эту область, включив в форму маснави такие темы, как таухид, мюнаджат, наат и мирадж пророка. Эти части, отражающие размышления о времени и человеке, стали неотъемлемой частью маснави вплоть до XIX века. А. Кабаклы, также упоминая таухид, мюнаджат и наат как разновидности касиды, писал: «Таухид объединил тюрков, которые до того были разобщены в вере» [5, с.88].

Во всех своих поэмах Низами создавал совершенные таухиды и мюнаджаты, и эти части, играя роль пролога, служили идее поэмы. Однако мюнаджат в поэме «Лейли и Меджнун» носит иной характер. Глава 44 под названием «Описание ночи и беседа Меджнуна с Богом» является как бы новой версией или продолжением мюнаджата в начале поэмы. Примечательно, что начальные фрагменты поэмы в дальнейшем перерабатываются в более расширенной и метафорической форме.

В статье проводится сравнительный анализ мюнаджатов, встречающихся в «Хамсе» Низами, а также даётся характеристика мюнаджата в поэме «Лейли и Меджнун».

***Afag YUSIFLI***
***PhD in Philology, Associate Professor***

## THE REFLEXTION OF RELIGIOUS VALUES IN NIZAMI GANJAVI'S POEM *LAYLI AND MAJNUN*

### *SUMMARY*

*Key words:* tawhid, munajat, narration, innovation, metaphor

Born, educated, and laid to rest in Ganja, Azerbaijan's oldest city, Nizami Ganjavi is described by Mehmet Fuad Köprülü as follows:" the unparalleled poet Nizami of Ganja, with his masnavis collected under the title 'Khamsa,' surpassed his predecessors and introduced many features in this genre, making the ancient poets completely forgotten" [10, p.18]. In this statement, M.F. Köprülü refers to the perfect introductory sections in Nizami's poems, which include tawhid, munajat, and na't , before the narrative begins. It is true that tawhid and na't

were also present in earlier works such as Ferdowsi’s Shahnameh and Gorgani’s Vis and Ramin. However, Nizami introduced significant innovations by incorporating tawhid, munajat, na’t, and discussions on the Prophet’s mi'raj into the masnavi form. These sections, reflecting thoughts on time and human existence, became an integral part of masnavis up to the 19th century. A. Kabaklı, referring to tawhid, munajat, and na’t as forms of qasida, wrote: “Tawhid united the Turks, who had previously been scattered in terms of faith” [5, p.88].

In all his poems, Nizami composed masterful tawhids and munajats, and these sections served as prologues that contributed to the thematic framework of the poems. However, the munajat in the poem Layla and Majnun carries a distinct character. The 44th chapter, titled “Description of the Night and Majnun’s Confession to God,” appears as a new version or continuation of the initial munajat of the poem. Interestingly, the motifs introduced in the opening verses reappear throughout the poem in a more expanded and metaphorical form.

This article compares the munajats in Nizami’s Khamsa and analyzes the characteristics of the munajat in the poem Layla and Majnun.

***Daxil oldu: 19.05.2025-ci il***